***Xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur və dəfələrlə demişəm ki, mən Prezident kimi öz vəzifəmi bunda görürəm – xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



# Azərbaycanda aparılan islahatlar xalqın hakimiyyətə etimadını daha da gücləndirir

Bütün bunlar statistik göstəricilərdə də öz aydın ifadəsini tapıb. Son 15 il ərzində iqtisadiyyat üç dəfədən çox artıb, yoxsulluq təxminən 50 faizdən 5 faizə düşüb. Dövlət başçısının söylədiyi kimi, yoxsulluğun aşağı səviyyəyə düşməsinin əsas səbəbi isə ondan ibarətdir ki, sosial sahəyə xüsusi diqqət göstərilib. Bu il 4 milyon 200 mindən çox insan çox geniş sosial paketlə əhatə olunub və minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə artıb. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faiz, müavinətlər isə 2 dəfə çoxalıb. Bu il, həmçinin orta əməkhaqqı 35 faiz artıb və hazırda Azərbaycanda orta əməkhaqqı 723 manat təşkil edir.

**Ölkəmiz ötən 16 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm inkişaf yolu keçib, bütün sahələrdə ciddi nailiyyətlər əldə edilib. Azərbaycan öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Respublikamızın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini təmin edib. Dövlət başçısının rəhbərliyi ilə gerçəkləşdirilən mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.**

Dövlətimizin başçısı Şirvan şəhər, Zərdab, Bakının Suraxanı, Yasamal, Xətai rayonlarına yeni təyin olunan icra hakimiyyəti başçıları ilə görüşündə bu rəqəmin yüksələcəyini də əminliklə vurğulayıb: "Əminəm ki, gələcək illərdə bu rəqəm artacaq. İlk növbədə ona görə ki, həm maaşlar artacaq, eyni zamanda, biz kölgə iqtisadiyyatına qarşı ciddi mübarizə apararaq, artıq 100 mindən çox iş yerini kölgədən çıxarıb və onları rəsmiləşdirə bilmişik və bu proses davam edəcək. Biz hələ işin başlanğıc mərhələsindəyik. Amma orta əməkhaqqının 35 faiz artırılması və 723 manata çatdırılması, əlbəttə ki, sosial siyasətimizin bariz nümunəsidir".

Böyük infrastruktur layihələri icra edilib və bu gün ölkəmizdə qazlaşdırmanın səviyyəsi 96 faizdir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı dünya miqyasında ikinci yerə layiq görübdür. Bu, çox böyük nailiyyətdir. Yolların tikintisi - 15 ildə 15 min kilometr yol çəkilib, o cümlədən magistral, şəhərlərarası, kənd yolları çəkilib. Digər infrastruktur layihələri, o cümlədən sosial infrastrukturla bağlı layihələr uğurla icra edilib, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikilib, yenidən qurulub, yaxud da ki, təmir edilib. Yəni, əldə edilmiş bütün bu nəticələri sadalamaq üçün saatlarla vaxt lazım olacaq.

Son illərdə energetika, nəqliyyat sahələrində də qarşıda duran bütün vəzifələr icra edilib. Bu vəzifələri icra etmək üçün çox böyük səy göstərilib. Mürəkkəb geosiyasi vəziyyətdə həm Bakı-Tbilisi-Ceyhan, həm də Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri istismara verilib. TANAP kimi tarixi layihə artıq fəaliyyətdədir və Cənub Qaz Dəhlizinin icrasının yekunlaşmasına demək olar ki, bir il vaxt qalıb.

Azərbaycanda nəqliyyat infrastrukturu müasirləşir. Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında göstərilir ki, dəmir yollarının səmərəliliyinə görə Azərbaycan dünya miqyasında 12-ci yerdədir, hava nəqliyyatının səmərəliliyinə görə isə 11-ci yerdədir. Avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 27-ci yerdədir və MDB-də birincidir.

Ötən illər ərzində ictimai-siyasi sabitliyin qorunması və daha da gücləndirilməsi Prezident İlham Əliyevin daxili siyasətinin əsas prioritetlərindən biri olub. Azərbaycan bütün dünyada sabitlik adası kimi tanınıb, ölkəmizdə etibarlı təhlükəsizlik mühiti formalaşdırılıb. Buna paralel olaraq demokratik islahatlar davam etdirilib, insan hüquqları və azadlıqlarının təmin olunması diqqət mərkəzində saxlanılıb. Bunun nəticəsi kimi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm nəticələr əldə olunub. İslahatlar, həmçinin idarəetmə sahəsini də əhatə edib. Konstitusion və institusional islahatlar idarəetmədə yeni keyfiyyət mərhələsi yaradıb. Gənclərin siyasi həyatda fəal iştirakını təmin etmək üçün yaş məhdudiyyəti aradan qaldırılıb, respublikamızda yeni vitse-prezidentlik institutu yaradılıb, vətəndaşlara dövlət diqqəti və qayğısı gücləndirilib. Dayanıqlı inkişafın, ərzaq təhlükəsizliyinin, icbari tibbi sığortanın tətbiqi ilə bağlı xüsusi layihələr həyata keçirilib. "ASAN" xidmətin, Elektron hökumətin, bələdiyyə idarəçiliyində effektivliyin gücləndirilməsi, müxtəlif idarəetmə orqanlarının birləşdirilərək funksionallığının artırılması idarəetmənin təkmilləşdirilməsinə mühüm töhfələr verib.

Bunlarla yanaşı, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzində modernləşmə və islahatlar xətti davam etdirilib, dərin konseptual əsaslara söykənən və bütün sahələri əhatə edən proqramlar uğurla icra olunub. Azərbaycan dünyada ən çox islahat aparan qabaqcıl ölkələrdən biri kimi tanınıb.

Beynəlxalq təşkilatların hazırladıqları hesabatlarda Azərbaycanda sosial-iqtisadi islahatların uğurla aparıldığı qeyd olunur. Dünya Bankının "Doing Business 2020" hesabatında Azərbaycanın dünyanın ən çox islahat aparan 20 ölkəsindən biri kimi seçilməsi, Sosial Tədqiqatlar Mərkəzi tərəfindən reallaşdırılan rəy sorğusunda əhalinin mütləq əksəriyyətinin Prezident İlham Əliyevi--islahatların rəhbərini dəstəkləməsi söylənilənlərin real təsdiqidir.

Azərbaycanda əldə edilən müsbət nəticələri qorumaq və artırmaq üçün hazırda çox ciddi kadr islahatları aparılır. Bununla bağlı Prezident İlham Əliyev deyib: "Təcrübə qazanmış kadrlar daha da səmərəli öz işlərini qururlar, eyni zamanda, gənclərə də böyük meydan verilir. Bu, təbiidir, çünki gələcəkdə ölkəmizi bugünkü gənclər idarə edəcəklər. Onlar gərək həm təcrübə toplasınlar, peşəkar olsunlar, eyni zamanda, vətənə bağlı olsunlar. Ona görə gənclərə vətənpərvərlik hissləri aşılamaq hər birimizin borcudur ki, onlar gələcəkdə vətənə bağlı olsunlar və hər hansı bir xarici təsirdən azad olsunlar".

Struktur islahatları ilə bağlı cənab İlham Əliyevin müəyyənləşdirdiyi strateji kurs ondan ibarətdir ki, icra strukturları çevik, mobil, yeni çağırışlara dərhal reaksiya verən olmalı, eyni zamanda az resurslardan istifadə etməklə şəffaf fəaliyyəti təmin etməlidirlər. Dövlət başçısı vəzifəyə yeni təyin etdiyi icra hakimiyyəti başçıları ilə görüşdə səsləndirdiyi fikirlərlə ilk növbədə onlara öz gündəlik fəaliyyətini nümunə göstərir. Cənab İlham Əliyev nümunəsi göz önündədir. Hər zaman vədndaşın yanında olmaq, xalqın sevimlisinə çevrilmək, problemləri dinləyib onların həlli ilə bağlı dərhal tapşırıqlar vermək... Bu, xalqa xidmət missiyasıdır.

Prezident İlham Əliyev Şirvan şəhər, Zərdab, Bakının Suraxanı, Yasamal, Xətai rayonlarının yeni təyin olunan icra hakimiyyəti başçılarını qəbulu zamanı onlara, ilk növbədə, yerlərdə vəziyyəti düzgün qiymətləndirməyin, bununla bağlı çox ciddi təhlillər aparmağın, çatışmayan cəhətlərin üzə çıxarılmasının, habelə mövcud problemlərin həlli üçün səy göstərilməsinin zəruriliyini diqqətə çatdırıb. Yalnız belə halda xalqa layaqətlə xidmət etmək nümunəsi göstərilməsinin mümkünlüyünü xatırladıb. Dövlətimizin başçısı daha sonra deyib: "Xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur və dəfələrlə demişəm ki, mən Prezident kimi öz vəzifəmi bunda görürəm – xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir".

Əlbəttə, aparılan islahatlar, əldə edilən uğurlu sosial-iqtisadi göstəricilər respublikada yaşanan sabitliyi möhkəmləndirir, xalqın hakimiyyətə etimadını daha da gücləndirir. Sabitliyin, xalqın hakimiyyətə, öz Prezidentinə olan etimadın getdikcə artması isə ölkənin inkişafı, tərəqqisi üçün başlıca şərtdir.

Yeri gəlmişkən, Dövlət başçısı nitqində ölkədə xalq-iqtidar birliyinin beynəlxalq təşkilatlar tərəfindən də yüksək dəyərləndirildiyini xatırladıb. Dünya İqtisadi Forumunun Hesabatının "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyasında Azərbaycanda iqtidarla xalq arasında böyük etimadın mövcudluğunun təsbit edildiyini, belə bir etimadın isə ictimai-siyasi və iqtisadi sabitliyi möhkəmləndirdiyini diqqətə çatdırıb.

Yeri gəlmişkən, sözügedən hesabatın adıçəkilən kateqoriyası üzrə Azərbaycanın "Böyük iyirmilik" ölkələrinin hər 4-dən 3-nü geridə qoyub. Bu kateqoriyada Azərbaycan bütün BRICS ölkələrini, postsovet respublikalarını və türk dövlətlərini qabaqlayır.

Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda "Siyasətçilərə ictimai etimad" kateqoriyası üzrə Azərbaycanın 137 ölkə arasında 20-ci pilləyə yüksəlməsi Prezident İlham Əliyevin siyasətinə əhalinin yüksək etimadının göstəricisi olmaqla yanaşı, həm də beynəlxalq ictimaiyyətin layiqli qiymətidir.

Əlbəttə, bütün bunlar dövlətin siyasətinə ictimai etimadın, xalq-iqtidar birliyinin və xalqın öz Prezidentinə olan inamının təzahürüdür.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 4 dekabr. S. 1.